*AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu*
*Azərbaycan ədəbiyyatşünaslığı, 2024, № 1*
*Səhifə: 94-99*
*https://doi.org/10.59849/2663-4406.2024.1.94*

*ISSN: 2663-4406*
*E-ISSN: 2709-2699*

# Tofiq Qaffarovun satirik – realist lirikası və nəsri

**Kamil Adişirinov**
Filologiya elmləri doktoru, dosent
AMEA-nın Şəki Regional Elmi Mərkəzi
ADPU-nun Şəki filialı
E-mail: kamil.adisirinov@mail.ru

**Annotasiya**. Məqalədə Tofiq Qaffarovun satirik məzmunlu şeirləri və hekayələri tədqiq edilmişdir. Təhlil edilmiş bədii nümunələrdə müəllifin əsərlərinin realist məzmunu və yaşadığı cəmiyyətin çatışmazlıqlarına dissident münasibəti öz əksini tapmışdır. Həmçinin təhlil edilmiş bədii nümunələrdə şairin sənətkarlığı da diqqətə çatdırılmışdır.
O, "Şəki fəhləsi" qəzetinin redaksiyası nəzdində fəaliyyət göstərən "Səbuhi" ədəbi məclisinin fəal üzvlərindən olmuş, əsərlərini ədəbiyyatın lirik, epik və dramatik növlərində yazmışdır. Onun lirik yaradıcılığı mövzu etibarilə zəngin olub vətənpərvərlik, didaktik-nəsihətamiz, ictimai, məhəbbət, təbiət mövzularını əhatə edir. Şairin lirik və nəsr yaradıcılığında satirik ruhlu əsərlər də vardır.
**Açar sözlər:** ədəbi mühit, satira, şeir, hekayə, nəsr, tip, obraz, süjet.

**Məqalə tarixçəsi:** göndərilib – 02.02.2024; qəbul edilib – 20.02.2024

# Tofiq Gaffarov's satric-realist lyrics and prose

**Kamil Adishirinov**
Doctor of Philological Sciences, Associate professor
Sheki Regional Scientific Center of ANAS
Sheki Branch of Azerbaijan State Pedagogical University
E-mail: kamil.adisirinov@mail.ru

**Abstract.** Tofiq Gaffarov's satiric poems and stories are investigated in Kamil Adishirinov's article "Tofiq Gaffarov's satiric-realist lyrics and prose". By means of the analyzed literary samples it is proved that the author's themes have realist content and express the author's obyektive and fearless attitude to the process in society.The writer's artistic creatibity are also appreciated while analyzing literary works.
He was one of the active members of the "Sabuhi" literary council, which operated under the editorship of the newspaper "Sheki Fehlesi" ("The Sheki worker") and he wrote his poems in lyrical, epic and dramatic genre of literature. His lyrical creativity was rich in terms of subject and covered themes of patriotism, didactic-advisory, folk, love and nature. There are works with satirical spirit in lyrical and prose creativity of the poet.
**Keywords :** literary atmosphere, satire, poem, story, proze-writer, prose, type, sharacter, plot

**Article history:** received – 02.02.2024; accepted – 20.02.2024





## Giriş / *Introduction*

XX əsrin 60-80-cı illərində Şəki ədəbi mühitində yazıb-yaradan istedadlı qələm sahiblərindən biri Tofiq Qaffarov olmuşdur. O, "Şəki fəhləsi" qəzetinin redaksiyası nəzdində fəaliyyət göstərən "Səbuhi" ədəbi məclisinin fəal üzvlərindən olmuş, əsərlərini ədəbiyyatın lirik, epik və dramatik növlərində yazmışdır. Onun lirik yaradıcılığı mövzu etibarilə zəngin olub vətənpərvərlik, didaktik-nəsihətamiz, ictimai, məhəbbət, təbiət mövzularını əhatə edir. Şairin lirik və nəsr yaradıcılığında **satirik** ruhlu əsərlər də vardır.

## Əsas hissə / *Main Part*

**1. Satirik-realist məzmunlu şeirlər:** Tofiq Qaffarovun arxivində bu istiqamətlə bağlı "Hayıf", "Özünü gözlə", "Ay üzü dönmüş", "İmzasızlara", "Bazarın azarı", "Hay-küyçü", "Şərçinin nəsihəti", "Ay kasıblıq", "Mərmər baş daşı", "Sözgəzdirən" və s. kimi onlarla şeir diqqəti cəlb edir. "Hayıf" adlı şeirində şair vəzifə kreslosunu əldə etdikdən sonra unutqanlıq azarına tutulan vəfasız dostları kəskin tənqid edərək gəncliyi bu hisslərdən uzaq olmağa çağırmışdır:

*Səni gördüm beş addımdan,*
*Gözlərimdə söküldü dan.*
*Elə ki, yanına çatdım,*
*Çaşıb baxdım matdım-matdım,*
*Nə soyuqluq, nə sərt baxış!,*
*Baxışlardan qar yağarmış.*
*Gözlərin nə yaman qanlı!,*
*Sözlərin qara tikanlı.* [1, s.126]

Şeirin misralarından sanki dostluğa biganə qalan, vəzifə kreslosuna əyləşdikdən sonra yolunu azmış bir tip boylanır. Şair şeirin sonunda bu mənfi tipə özünün təəssüf hissini bildirərək yazır:

*Hayıf!... Çəkib irəliyə,*
*Səni yaman itirdik biz!*
*Gözümüzlə od götürüb,*
*Tonqal, alov bitirdik biz...* [1, s.127]

Şairin "Uşaq olmaq istəyirəm" şeirinin lirik qəhrəmanı yaşamış olduğu uşaqlıq illərinin həsrətindədir. Çünki qəhrəman yaşa dolduqca həyatın eybəcərlikləri ilə üzləşir, cəmiyyətdəki insanların mənfi keyfiyyətlərindən gileylənir. Şair bu xüsusiyyətlərlə bağlı lirik qəhrəmanın nə üçün uşaq olmaq istəməsini oxucusunun nəzərinə aydınlığı ilə çatdıraraq yazır:

*Xəbərsizdim, adamların qurmasından,*
*İlan kimi vurmasından,*
*Xəbərsizdim, gülə-gülə ağladandan,*
*Xoş günləri dost üzünə bağladandan!*
*Nə qədər ki, uşaq idim,*
*Xoşbəxt idim,*
*Mən hamının sevincinə ortaq idim.* [1]

Şair yaşadığı cəmiyyətə, rüşvətxor idarə rəhbərlərinə, möhtəkir ticarətçilərə, yaltaqlıq yolu ilə ucalanlara nifrətini həm açıq satirik, həm də alleqorik dillə bildirmişdir. Onun XX əsrin 90-cı illərinin əvvəllərində cəmiyyətdə baş alıb gedən özbaşınalığın, vəzifə düşkünlüyünün, rüşvətxorluğun, canavar iştahlıların meydan suladığını açıq şəkildə tənqid edən "Dünyanın axırı" şeirini satirik yaradıcılığının proqramı hesab etmək olar:

*Haqqın tərəzisi yaman əyilib,*
*Vəzifə, qohumluq qüvvətlənibdir,*
*Əl çirki sayılan pula bax ki, sən,*
*Namərdlər əlində cürətlənibdir.*
*Oğurluq, fırıldaq hünər sayılır,*
*Doğruluq, bacarıq lənətlənibdir!*
*Əməldə halallıq çox ucuz olub,*
*Rəsmi qanunlar da mürvətlənibdir!*
*Canavar iştahlı gün-gündən artır,*
*Yaxşının ölməsi sürətlənibdir.*
*Qalanlar dözməyir bu rəzalətə,*
*Susdurub deyirlər: "Qeyrətlənibdir!"*
*Ürək ağrısından biri çaşanda,*
*Gülüb söyləyirlər: "Heyrətlənibdir!"*
*Ay qardaş, bu dünya yatıbdır, bəlkə?!.*
*Dünyanın axırı çatıbdır, bəlkə?!* [1, s.128].

"Dünya uzunsov olsa" satirik ruhlu şeirində müəllif savadsız olmasına baxmayaraq, tərəzi arxasında savadlını aldadan, haramlığı əsas yavanlıq sayan bir ticarət adamının surəti yaratmışdır. Şeirin son üç bəndi şairin satirik niyyətini başa düşmək üçün kifayətdir:

*Tikdirdiyin imarət,*
*Oxşamayır ürəyi,*
*Çünki haram qazancla,*
*Ucalıbdır dirəyi.*

*Altındakı "Volqa" da,*
*Gözə iynə tək batır,*
*Haram maşından, məncə,*
*Yaxşıdır axsaq qatır.*

*Övladından keçərsən,*
*Bir az yağlı ov olsa,*
*"Happ" eləyib udarsan,*
*Dünya uzunsov olsa.* [1,s.121-122]

– misralarının məzmunu Tofiq Qaffarovun ümumiləşdirmə və tipi ifşaetmə istedadını tam şəkildə oxucuya çatdırır.

Şairin mənfi tipin dilindən yazılmış "Düşmür mənə niyyət, bala" adlı satirası da mövzuca aktualdır. Övladını möhtəkirliyə, zəhmətsiz gəlirə, tüfeyli həyata sövq edən ata satiranın əsas tənqid hədəfidir:

*Fürsət ələ keçən zaman,*
*Bir kimsəyə vermə aman,*
*Bir qəpiyə dəymaz inan,*
*Quru-quru qeyrət, bala!*

*Gəlhagəlin gördün boldur,*
*Tez qaz vurub, qazan doldur,*
*Ömür qısa, çətin yoldur,*
*Verməz sənə möhlət, bala.* [1, s.120-121]





– misralarının ünvanı qeyrətsiz ata olsa da, tüfeyli gəncliyin yetişməsinə ürəkdən acıyan bir müəllim-şair harayıdır.

**2. Təmsil yaradıcılığında satirik tərz:** Tofiq Qaffarovun cəmiyyətə satirik münasibəti onun təmsil yaradıcılığında daha qabarıq şəkildə öz əksini tapmışdır. Şairin təmsilləri "Şəki fəhləsi" qəzetinin səhifələrində dərc edilmişdir. Onun təmsil janrında yazdığı "İlan və qurbağa", "Dəvəquşu igidliyi", "Dovşan qeyrəti", "Tülkünün qudurğanlığı", "Parıltı", "İlbiz özü haqqında", "Ulaq rəyi", "Kərtənkələ humanizmi", "Baş girləyən eşşək" adlı şeirləri müxtəlif illərdə "Şəki fəhləsi" və "İpəkçi" qəzetinin səhifələrində dərc olunmuşdur.

"Baş girləyən eşşək" təmsilində şair qohumbazlıq yolu ilə vəzifə ələ keçirən qanmaz adamları Eşşək surətində canlandıraraq tənqid etmişdir. "Parıltı" təmsilində zahirən gözəl olsa da, batini çirkin olan insanlardakı lovğalıq hissi tənqid olunmuşdur. Şair cəmi altı misralıq bir parça ilə qiymətsiz olan "parıltıları" lakonik şəkildə tənqid etmişdir:

*Parıltı hər yanda öyüb özünü,*
*Kölgəyə bərəltdi daim gözünü,*
*Onun danlağına dözmədi Kölgə:*
*Bir azca köpünü alasan bəlkə?.*
*İlan gözləri də parıldayır ,bil*
*Hər parıldayan şey qiymətli deyil!* [1, s.169]

Cəmiyyətdəki lovğa insanlar "İlbiz özü haqqında" təmsilində tənqid edilmişdir.

**3. Cəmiyyətə satirik baxış nəsrdə:** Tofiq Qaffarov XX əsr Şəki ədəbi mühitində kiçik hekayələr ustası kimi də tanınır. Real həyat hadisələrinin bədii təsviri, cəmiyyətin ayrı-ayrı təbəqələrinə olan münasibət, sadə insanların taleyi, yığcamlıq onun bədii nəsrinin əsas xüsusiyyətlərini təşkil edir. Onun hekayə yaradıcılığında "Zəlil" [10], "Qapaz" [15], "Qabıq, yaxud beş dostdan biri" [8], "Bığ" [9], "Müdircan" [4], "Üzük", "Qara gözlər", "Qızın səhvi", "Boğulan gülüşlər" və s kimi hekayələri mühüm yer tutur. Onun hekayələrinin qəhrəmanları cəmiyyətin müxtəlif tərəflərindən seçilmiş, üzərində böyük ümumiləşdirilmə aparılmış insanlardır.

Yazıçının maraqlı əsərlərindən biri "Bığ" [9] hekayəsidir. Məlumdur ki, bığ kişiyə xas olan xarici əlamətlərdəndir. Babalarımız kişinin saxasını bəzən onun bığı ilə ölçmüşlər. Adi bığ əhvalatı ilə yazıçı cəmiyyətdə mövcud olan bir sıra yaltaq ünsürlərin iç üzünü açmış, onların simasızlığını oxucunun nəzərinə çatdırmışdır. Hekayənin baş qəhrəmanı və tənqid hədəfi həmişə öz şəvə bığları ilə öyünən və qürurla gəzən Səftərquludur. Müəllif Səftərqulunun bığlarını qırxdırması səhnəsini təsvir etməklə, bığsız təzə rəisin qarşısında özünü bığlı təsəvvür etməkdən qorxan, öz kişi qürurunu vəzifə hərisliyindən aşağı sayan bir yaltaq surəti yaratmışdır. Səftərqulunun: "Görmürsünüz təzə rəisimiz bığsızdır. Mən necə bığ qoyum!" [1, s.195; 9] sözləri onun şəxsiyyətinin çürüklüyünü açan bir vasitə kimi diqqəti cəlb edir.

"Zəlil" [1; 10] hekayəsində yazıçı Evlər İdarəsinin rəisi Kələntər Pirquliyev surəti ilə vəzifəsini vicdanla yerinə yetirməyə çalışsa da, Əmirxanov kimi yuxarı çinli məmurların əlində oyuncağa çevrilən bir tip yaratmışdır. Kələntər Pirquliyev qanunun müddəalarını əsas götürərək rəhbərlik etdiyi idarənin gözətçisi Səfəralını təqaüdə qeyri-qanuni çıxartmaq istəmir. Lakin nazir müavini Əmirxanovun ona vurduğu telefon zəngi ilə vəziyyət dəyişir. Məlum olur ki, Səfəralı "arxalı" imiş. Əmirxanovdan qorxan Kələntər Pirquliyev cinayətə yol verərək Səfəralıya vaxtından tez arayış verir. Əsərin süjetini məqsədinə uyğun inkişaf etdirən yazıçı hekayədə ədalətin təntənəsini də əks etdirməyi unutmamışdır. Təsadüfən Bakıdan Rayon Sosial Təminat Şöbəsinə yoxlama gəlir. Yoxlama komissiyasının tərkibində nazir müavini vəzifəsindən uzaqlaşdırılıb aşağı vəzifəyə keçirilmiş Əmirxanov da var. Kələntər Pirquliyevi yenidən yağlı tikə kimi udmaq üçün Əmirxanovun əlinə yaxşı fürsət düşmüşdür. O, mehmanxanada olarkən Kələntəri yanına çağırıb köhnə arayış məsələsini ona xatırladır və cinayət işlətməsində təqsirləndirib ondan rüşvət tələb edir. Yazıçı hekayədə

*Haqqın tərəzisi yaman əyilib,*
*Vəzifə, qohumluq qüvvətlənibdir,*
*Əl çirki sayılan pula bax ki, sən,*
*Namərdlər əlində cürətlənibdir.*
*Oğurluq, fırıldaq hünər sayılır,*
*Doğruluq, bacarıq lənətlənibdir!*
*Əməldə halallıq çox ucuz olub,*
*Rəsmi qanunlar da mürvətlənibdir!*
*Canavar iştahlı gün-gündən artır,*
*Yaxşının ölməsi sürətlənibdir.*
*Qalanlar dözməyir bu rəzalətə,*
*Susdurub deyirlər: "Qeyrətlənibdir!"*
*Ürək ağrısından biri çaşanda,*
*Gülüb söyləyirlər: "Heyrətlənibdir!"*
*Ay qardaş, bu dünya yatıbdır, bəlkə?!.*
*Dünyanın axırı çatıbdır, bəlkə?!* [1, s.128].

"Dünya uzunsov olsa" satirik ruhlu şeirində müəllif savadsız olmasına baxmayaraq, tərəzi arxasında savadlını aldadan, haramlığı əsas yavanlıq sayan bir ticarət adamının surəti yaratmışdır. Şeirin son üç bəndi şairin satirik niyyətini başa düşmək üçün kifayətdir:

*Tikdirdiyin imarət,*
*Oxşamayır ürəyi,*
*Çünki haram qazancla,*
*Ucalıbdır dirəyi.*

*Altındakı "Volqa" da,*
*Gözə iynə tək batır,*
*Haram maşından, məncə,*
*Yaxşıdır axsaq qatır.*

*Övladından keçərsən,*
*Bir az yağlı ov olsa,*
*"Happ" eləyib udarsan,*
*Dünya uzunsov olsa.* [1,s.121-122]

– misralarının məzmunu Tofiq Qaffarovun ümumiləşdirmə və tipi ifşaetmə istedadını tam şəkildə oxucuya çatdırır.

Şairin mənfi tipin dilindən yazılmış "Düşmür mənə niyyət, bala" adlı satirası da mövzuca aktualdır. Övladını möhtəkirliyə, zəhmətsiz gəlirə, tüfeyli həyata sövq edən ata satiranın əsas tənqid hədəfidir:

*Fürsət ələ keçən zaman,*
*Bir kimsəyə vermə aman,*
*Bir qəpiyə dəyməz inan,*
*Quru-quru qeyrət, bala!*

*Gəlhagəlin gördün boldur,*
*Tez qaz vurub, qazan doldur,*
*Ömür qısa, çətin yoldur,*
*Verməz sənə möhlət, bala.* [1, s.120-121]





– misralarının ünvanı qeyrətsiz ata olsa da, tüfeyli gəncliyin yetişməsinə ürəkdən acıyan bir müəllim-şair harayıdır.

**2. Təmsil yaradıcılığında satirik tərz:** Tofiq Qaffarovun cəmiyyətə satirik münasibəti onun təmsil yaradıcılığında daha qabarıq şəkildə öz əksini tapmışdır. Şairin təmsilləri "Şəki fəhləsi" qəzetinin səhifələrində dərc edilmişdir. Onun təmsil janrında yazdığı "İlan və qurbağa", "Dəvəquşu igidliyi", "Dovşan qeyrəti", "Tülkünün qudurğanlığı", "Parıltı", "İlbiz özü haqqında", "Ulaq rəyi", "Kərtənkələ humanizmi", "Baş girləyən eşşək" adlı şeirləri müxtəlif illərdə "Şəki fəhləsi" və "İpəkçi" qəzetinin səhifələrində dərc olunmuşdur.

"Baş girləyən eşşək" təmsilində şair qohumbazlıq yolu ilə vəzifə ələ keçirən qanmaz adamları Eşşək surətində canlandıraraq tənqid etmişdir. "Parıltı" təmsilində zahirən gözəl olsa da, batini çirkin olan insanlardakı lovğalıq hissi tənqid olunmuşdur. Şair cəmi altı misralıq bir parça ilə qiymətsiz olan "parıltıları" lakonik şəkildə tənqid etmişdir:

*Parıltı hər yanda öyüb özünü,*
*Kölgəyə bərəltdi daim gözünü,*
*Onun danlağına dözmədi Kölgə:*
*Bir azca köpünü alasan bəlkə?.*
*İlan gözləri də parıldayır ,bil*
*Hər parıldayan şey qiymətli deyil!* [1, s.169]

Cəmiyyətdəki lovğa insanlar "İlbiz özü haqqında" təmsilində tənqid edilmişdir.

**3. Cəmiyyətə satirik baxış nəsrdə:** Tofiq Qaffarov XX əsr Şəki ədəbi mühitində kiçik hekayələr ustası kimi də tanınır. Real həyat hadisələrinin bədii təsviri, cəmiyyətin ayrı-ayrı təbəqələrinə olan münasibət, sadə insanların taleyi, yığcamlıq onun bədii nəsrinin əsas xüsusiyyətlərini təşkil edir. Onun hekayə yaradıcılığında "Zəlil" [10], "Qapaz" [15], "Qabıq, yaxud beş dostdan biri" [8], "Bığ" [9], "Müdircan" [4], "Üzük", "Qara gözlər", "Qızın səhvi", "Boğulan gülüşlər" və s kimi hekayələri mühüm yer tutur. Onun hekayələrinin qəhrəmanları cəmiyyətin müxtəlif tərəflərindən seçilmiş, üzərində böyük ümumiləşdirilmə aparılmış insanlardır.

Yazıçının maraqlı əsərlərindən biri "Bığ" [9] hekayəsidir. Məlumdur ki, bığ kişiyə xas olan xarici əlamətlərdəndir. Babalarımız kişinin saxasını bəzən onun bığı ilə ölçmüşlər. Adi bığ əhvalatı ilə yazıçı cəmiyyətdə mövcud olan bir sıra yaltaq ünsürlərin iç üzünü açmış, onların simasızlığını oxucunun nəzərinə çatdırmışdır. Hekayənin baş qəhrəmanı və tənqid hədəfi həmişə öz şəvə bığları ilə öyünən və qürurla gəzən Səftərquludur. Müəllif Səftərqulunun bığlarını qırxdırması səhnəsini təsvir etməklə, bığsız təzə rəisin qarşısında özünü bığlı təsəvvür etməkdən qorxan, öz kişi qürurunu vəzifə hərisliyindən aşağı sayan bir yaltaq surəti yaratmışdır. Səftərqulunun: "Görmürsünüz təzə rəisimiz bığsızdır. Mən necə bığ qoyum!" [1, s.195; 9] sözləri onun şəxsiyyətinin çürüklüyünü açan bir vasitə kimi diqqəti cəlb edir.

"Zəlil" [1; 10] hekayəsində yazıçı Evlər İdarəsinin rəisi Kələntər Pirquliyev surəti ilə vəzifəsini vicdanla yerinə yetirməyə çalışsa da, Əmirxanov kimi yuxarı çinli məmurların əlində oyuncağa çevrilən bir tip yaratmışdır. Kələntər Pirquliyev qanunun müddəalarını əsas götürərək rəhbərlik etdiyi idarənin gözətçisi Səfəralını təqaüdə qeyri-qanuni çıxartmaq istəmir. Lakin nazir müavini Əmirxanovun ona vurduğu telefon zəngi ilə vəziyyət dəyişir. Məlum olur ki, Səfəralı "arxalı" imiş. Əmirxanovdan qorxan Kələntər Pirquliyev cinayətə yol verərək Səfəralıya vaxtından tez arayış verir. Əsərin süjetini məqsədinə uyğun inkişaf etdirən yazıçı hekayədə ədalətin təntənəsini də əks etdirməyi unutmamışdır. Təsadüfən Bakıdan Rayon Sosial Təminat Şöbəsinə yoxlama gəlir. Yoxlama komissiyasının tərkibində nazir müavini vəzifəsindən uzaqlaşdırılıb aşağı vəzifəyə keçirilmiş Əmirxanov da var. Kələntər Pirquliyevi yenidən yağlı tikə kimi udmaq üçün Əmirxanovun əlinə yaxşı fürsət düşmüşdür. O, mehmanxanada olarkən Kələntəri yanına çağırıb köhnə arayış məsələsini ona xatırladır və cinayət işlətməsində təqsirləndirib ondan rüşvət tələb edir. Yazıçı hekayədə

təsvir etdiyi bu iki obrazın dialoqu ilə mühitin ictimai reallıqlarını oxucusuna aydın çatdıra bilmişdir. Dialoqun bir tərəfində rüşvətxor, digər tərəfində qorxaqlığı ucbatından cinayətə yol verərək tir-tir əsən bir məmur durur. Pirquliyev Əmirxanovun ondan tələb etdiyi beş yüz manatı rüşvət kimi verir. Əsərin sonunda müəllif rüşvətxoru cəzalandırır. Yazıçı Əmirxanovun düşdüyü son vəziyyəti zəlil adlandırır. Müəllif hekayədə real həyat həqiqəti olan vəzifə düşkünlüyünü, rüşvətxorluğu konkret faktla, hadisə və obrazların hərəkətində verə bilmişdir.

Yazıçının "Müdircan" [1; 4] adlı kiçikhəcmli hekayəsində yaltaqlığın ali dərəcəsi göstərilmişdir. Hekayə birinci şəxsin dili ilə oxucuya nəql edilir. Müəllif yaltaq Heydərqulu surəti ilə oxucularını dərindən tanış edir. Məlum olur ki, "müdircan" ifadəsi vaxtilə Heydərqulu şəhər xəstəxanasında təsərrüfat müdiri işləyərkən hər kəlmə başı müdirə etdiyi müraciətdir. Yazıçı Heydərqulunun yaltaq simasını oxucularına daha aydın çatdırmaq üçün hamam sərgüzəştini təsvir etmişdir. Hekayədən nümunə kimi verdiyimiz parça təkcə Heydərquluya deyil, bütün müdirlərə yaltaqlanan yaltaqlara aiddir: "O, iri gövdəsinə yaraşmayan tərzdə yaylandı, lap qadın kimi əzilib-büzüldü, üzünü gülüş və təbəssümlə bəzədi və yağlı dilini işə saldı:

Müdircan, gördüm hamama gəlirsiniz, yağış da bərkiyir, ona görə taksi gətirdim ki, hamamdan çıxanda islanmayasınız" [1, s.185; 4].

Lakin Heydərqulunun müdircanlığı daimi deyil. Onun qarşısında ikiqat olduğu müdir artıq müdir vəzifəsində işləmir. Heydərqulu da ona münasibətini dəyişib. Artıq onu saymır. Yazıçı bu reallığı hekayədə avtobusda gələn müdirin dili ilə aşağıdakı kimi oxucusuna çatdırır: "İndi, qardaş, həmin tip beş-beşdən qabaqda oturub, yüz kilometrlik yolu mən ayaq üstə gəlirəm, heç yerini də mənə təklif etmir. Deməli, o əclaf o zaman müdir olduğum üçün mənə hörmət edirdi. İndi isə mənə hörmət etmək lazım deyil, çünki mən müdir deyiləm" [1, s.186; 4].

Bu hekayə Tofiq Qaffarovun hekayə yaradıcılığındakı müasirliyi ilə mövzu aktuallığını nəzərimizə çatdırır.

Yazıçının ən maraqlı hekayələrindən biri "Qapaz" [1; 5] adlanır. Hekayənin baş qəhrəmanı Həsən Eşqi adlı bir ziyalıdır. Əsəri oxuduqca oxucuya elə gələ bilər ki, müəllif bu surəti mənfi planda işləyib. Həsən Eşqi hekayənin məzmunundan göründüyü kimi, yaradıcı ziyalıdır. Bədii yaradıcılıqla məşğul olur. Ancaq onun yazdıqları çevrəsində olan adamlar tərəfindən qiymətləndirilmir. Məktəb direktoru hər gün onu danlayır, qabiliyyətsizlikdə, bacarıqsızlıqda günahlandırır. Həsən Eşqinin məişət şəraitini təsvir etməklə müəllif, fikrimizcə, yaşadığı mühitin çatışmazlıqlarını, əhaliyə göstərilən sosial xidmətin yarıtmazlığını nəzərimizə çatdırır: "Ürəyi yanırdı. Stəkanı su kranının altına tutdu. Tərs kimi su gəlmədi. Əh, səni lənətə gələsən! – deyə lap özündən çıxdı. – Di gəl, bu xarabada adam kimi yaşa, yarat. Allahın suyu da quruyub. Hamısı özbaşınalıqdan irəli gəlir..." [1, s. 177; 5].

Bu sətirlər hekayə müəllifinin yaşadığı siyasi mühitə açıq etirazı kimi səslənir. Yazıçı əsərdə Həsən Eşqinin dili ilə: "Su yox, qaz yox, işıq yanmır...." [1, s.178; 5] fikri ilə həyat həqiqətlərini oxucuya çatdırır.

Həsən Eşqi müəllifin qələmində "mənfi", "demaqoq" kimi təsvir edilib. O, gördüyü haqsızlıqlara dözmür, yuxarılara imzalı-imzasız şikayət məktubları yazır. Yoxlama komissiyasının fikirləri ilə də yazıçı kinayəli şəkildə siyasi quruluşun ədalətsizliyinə qarşı çıxır: "Qulaq as deyim. Komissiyanın sədri təmkinlə danışmağa başladı:

- O düz deyil ki, haqq, ədalət tapdanır, sənə zülm edirlər. O düz deyil ki, rayon başsız qalıb, hamı öz kabinetindədir. Camaatın qayğısına qalan yoxdur" [1, s.180; 5].

Əsərin sonunda döyüş meydanında tək qalıb, mübarizəsi üçün təəssüf hissi keçirərək başına qapaz salan Həsən Eşqinin düşdüyü vəziyyətə oxucu kədərlənməyə bilmir.

Həyatı müşahidə qabiliyyəti güclü olan yazıçı hekayələrində kənd məişətini, kolxoz həyatını ("Boğulan gülüşlər"), dostluqda sədaqətsizliyi ("Qabıq, yaxud beş dostdan biri"), gənclərin təmiz sevgi hisslərini ("Qara gözlər") və s. mövzuları da əks etdirmişdir.





**Nəticə / *Conclusion***

Biz yazıçının zəngin yaradıcılığı haqqında ümumi şəkildə danışa bildik. Təhlillərdən göründüyü kimi, Tofiq Qaffarov yaradıcı qələm sahibi kimi XX əsr Şəki ədəbi mühitində özünəməxsus yaradıcılıq yoluna malik bir sənətkardır. Onun şeirlərinin dil və üslub xüsusiyyətləri ədəbi meyarlar çərçivəsindədir ki, bu da onun mükəmməl biliyə malik dil və ədəbiyyat müəllimi olması ilə bağlıdır. Poeziyasında və nəsrində yaşadığı zaman çərçivəsində cəmiyyətə dissident münasibəti onu oxucuya sevdirən cəhətdir. Yazıçı istər açıq, istərsə də qapalı tənqid yolu ilə cəmiyyətdə olan çatışmazlıqlara qarşı mübarizədən çəkinməmişdir. Bu istedadlı qələm sahibini oxucuya daha da yaxınlaşdırmaq üçün bu sətirlərin müəllifi tərəfindən ədəbi irsi "Gözümün işığı, dilimin sözü" adı ilə kitab şəklində [1] nəşr etdirilmişdir. İnanmaq olar ki, dərin məzmunlu şeirlərinə və hekayələrinə görə T.Qaffarov gələcəkdə Azərbaycan ədəbiyyatında layiqli yerini tutacaqdır.

**Ədəbiyyat / *References***


1. Qaffarov,T. Gözümün işığı, dilimin sözü: şeirlər, hekayələr və məqalələr (Tərtib edəni K.F.Adişirinov). – Bakı: Elm və təhsil, – 2016, – 316 s.
2. Qaffarov, T . Parıltı : təmsil. – Şəki: "İpəkçi" qəz., – 1974, – 12 yanvar.
3. Qaffarov, T. Tülkünün qudurğanlığı. – Şəki: "Şəki fəhləsi" qəz., – 1969, – 18 yanvar.
4. Qaffarov, T. Müdircan: hekayə. – Şəki: "Şəki fəhləsi" qəz., – 1970, – 26 may.
5. Qaffarov, T. Qapaz: hekayə. – Şəki: "Şəki fəhləsi" qəz., – 1973, – 1-3 fevral.
6. Qaffarov, T. Mənəvi saflıq uğrunda. – Şəki: "Şəki fəhləsi" qəz., – 1983, – 24 fevral.
7. Qaffarov, T. Aravuran: satira. – Şəki: "Şəki fəhləsi"qəz., – 1974, – 26 fevral.
8. Qaffarov, T. Qabıq, yaxud beş dostdan biri:hekayə. – Şəki: "İpəkçi" qəz., – 31 may.
9. Qaffarov, T. Bığ: hekayə. – Şəki: "Şəki fəhləsi" qəz.; – 1970, – 25 iyul.
10. Qaffarov, T. Zəlil: hekayə. – Şəki: "Şəki fəhləsi" qəz., – 1973, – 3-6-8 mart.


## Сатирико-реалистическая лирика и проза Тофига Гаффарова

**Камил Адиширинов**
Доктор филологических наук, доцент
Шекинский региональный научный центр НАНА
Шекинский филиал Азербайджанского государственного педагогического университета
E-mail: kamil.adisirinov@mail.ru

**Резюме.** В статье Камиля Адиширинова исследуется сатирическое содержание стихов и рассказов Тофига Гафарова. Анализируемые художественные образцы служат подтверждением того, что темы его произведений имеют реалистическое содержание и выражают объективное, диссидентское отношение автора к происходящим в обществе событиям. В том числе при анализе произведений оценивается его художественное мастерство.
Тофиг Гафаров был плодотворным членом литературного общества «Сабухи» при редакции газеты «Шекинский рабочий», писал произведения в лирическом, эпическом, драматическом литературных жанрах. Особенно богато его лирическое творчество, охватывающее патриотическую, дидактико-назидательную, общественную, любовную и тему природы. В лирическом и прозаическом творчестве поэта имеются также сатирические произведения.

**Ключевая слова:** литературная среда, сатира, стихотворение, прозаик, проза, тип, образ, сюжет